**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

*Əlyazması hüququnda*

**SƏNAN ƏLİHADI OĞLU KƏRİMOV**

# QLOBALLAŞMA ŞƏRAİTINDƏ YEYİNTİ SƏNAYESİ MƏHSULLARININ KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

**İxtisas: 5312. 01 – "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI - 2015**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər**: iqtisad elmləri doktoru, professor, əməkdar müəllim **Alıcan Bayramalı oğlu Abbasov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru **Telman Qurban oğlu Babayev**

iqtisad üzrə fəlsəfə doktoru **Nəsimi Bəşir oğlu Kamalov**

**Aparıcı müəssisə:** Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu

Dissertasiya işinin müdafiəsi 8 yanvar 2016 – cı ildə saat $14^{00}$ - da Azərbaycan Milli Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən D. 01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Az 1043, Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, AMEA İqtisadiyyat İnstitutu

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi kitabxanasında tanış olmaq olar.

Avtoreferat 2 dekabr 2015 – ci ildə göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının
elmi katibi, iqtisad üzrə
fəlsəfə doktoru, dosent **F.Q.Musayeva**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Azərbaycan Respublikasında yeyinti sənayesi məhsullarının keyfiyyətinin yüksəldilməsi, təhlükəsizliyinin təmin edilməsi mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar bu sahədə aparılan elmi - tədqiqat işləri xüsusi nəzəri və praktiki əhəmiyyətə malikdirlər.

Keyfiyyət problemi yalnız bizim respublikamızda deyil, dünya miqyasında problem olaraq qalır, buna baxmayaraq, Azərbaycanda yeyinti sənayesi məhsullarının istehsalının artırılması və keyfiyyətinin yüksəldilməsi ehtiyatları hərtərəfli araşdırılmamışdır, istehsal, marketinq və istehlak mərhələlərində keyfiyyətin yüksəldilməsi problemlərinin həllinə kompleks şəkildə yanaşılmamış, keyfiyyətin nəzəri - metodoloji məsələləri onun yüksəldilməsinin iqtisadi mexanizmi elmi cəhətdən tədqiq olunmamışdır. Bu problemin həlli - dövlətin müstəqilliyi, iqtisadi təhlükəsizliyi, cəmiyyətdə sosial stabilliyin və milli təhlükəsizliyin qorunub saxlanmasının zəruri şərtidir.

Yeyinti sənayesi, respublikamızın iqtisadiyyatının aqrar kompleksinə daxil olan iri sahələrindən biridir. Yeyinti sənayesinin məhsulları geniş çeşidliliyi və kütləviliyi ilə xarakterizə edilir. Yeyinti sənayesi istehsal müəssisələri, yeyinti məhsullarının istehsalının maddi - texniki bazasını təşkil edir. Yeyinti məhsulları, istehsalçıların eləcə də iqtisadiyyatın bütün istehsal müəssisələrinin birinci həyat şərtidir. Bu onunla izah edilir ki, son illər Azərbaycanda və dünyada bir çox dəyişikliklər baş vermiş, qloballaşma güclənmiş, Azərbaycanın Avropa və bütün dünya ölkələrinə inteqrasiyasının dərinləşməsi, Beynəlxalq Ticarət Təşkilatına - (BTT) üzvlüyə hazırlaşması, enerji daşıyıcılarının Avropaya nəql edilməsi sahəsindəki qlobal layihələr və bir sıra başqa dəyişikliklər nəticəsində Azərbaycan öz inkişafının yeni mərhələsinə daxil olmuşdur. Ermənistanın Azərbaycana hərbi təcavüzü və torpaqlarımızın 20% - nin erməni işğalçıları tərəfindən işğalı, 1 milyondan artıq qaçqın və köçkünlərin öz doğma yurdlarından didərgin düşməsi, Azərbaycan iqtisadiyyatının inkişafının əsaslarına uyğun olaraq, əhalinin yeyinti sənayesi məhsulları ilə təhlükəsiz təmin edilməsini ön plana çəkir və Azərbaycanın strateji milli prioritetlərinin reallaşmasının labüdlüyünü diktə edir:

- əhalinin həyat səviyyəsinin keyfiyyətinin yüksəldilməsi;
- iqtisadi artım tempi;
- fundamental elmin, təhsilin, səhiyyənin və mədəniyyətin inkişafı;
- ölkənin müdafiəsi və təhlükəsizliyi;
- texnoloji böhranın aradan qaldırılması;

- ayrı – ayrı prioritet sahələrdə liderliyi təmin etmək;

Azərbaycanda yeyinti sənaye müəssisələrinə iri çörəkbişirmə müəssisələri, makaron fabrikaları, dəyirmanlar, unlu qənnadı məmulatları istehsal edən - biskvit fabrikaları, karamel fabrikası, çay fabrikaları, şərab zavodları, pivə və alkoqolsuz içgilər, tütün məmulatları istehsal edən fabrikalar və b. aiddir. Respublikamızın yeyinti sənayesinin yüksək mexanikləşdirilmiş müəssisələri texniki səviyyəsinə görə o zaman Sovet məkanında fəaliyyət göstərən müəssisələrdən heç də geri qalmırdılar. Yeni texnologiyalar, fasiləsiz işləyən axımlı xətlər öz tətbiqini tapmışdı. Buraxılan məhsulların keyfiyyətinə və təhlükəsizliyinə nəzarət edən strukturlar - laboratoriyalar, texniki - nəzarət şöbələri fəaliyyət göstərirdi. Məhsulların fiziki - kimyəvi, mikrobioloji təhlili aparılırdı, orqanoleptik göstəriciləri müəyyənləşdirilirdi. Ali və orta ixtisas təhsilli mütəxəssislərin ixtisas artırma kurslarında 5 - ildən bir nəzəri biliklərinin artırılmasına, peşə məktəblərində fəhlə kadrların nəzəri biliklərə yiyələnməsinə və istehsal müəssisələrində təcrübə keçməsinə xüsusi fikir verilirdi.

Respublikamızın yeyinti sənayesi müəssisələrində BİP - Ryazan, STP - Saratov, KSUKP- LVOV keyfiyyəti idarəetmə sistemləri tətbiq edilirdi. Bu sistemlər Bakının yeyinti sənaye müəssisələrində işlənib hazırlanmış, tətbiq edilmiş və Respublika Standartlar Komitəsində qeydiyyatdan keçirilmişdi.

Azərbaycan Müstəqil Respublika statusunu bərpa etdikdən sonra bazar iqtisadiyyatına keçidlə əlaqədar, istehsal müəssisələrində bir sıra neqativ dəyişikliklər baş verdi: iqtisadi əlaqələrin qırılması, ənənəvi satış bazarının itirilməsi, özəlləşdirilmənin aparılması, iri yeyinti sənayesi müəssisələrinin sökülüb, yerində yüksək mərtəbəli yaşayış mənzil binalarının tikilməsi, keyfiyyətə nəzarət edən müəssisə laboratoriyalarının və texniki - nəzarət şöbələrinin ləğvi və s. Eyni zamanda ərzaq məhsullarının keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinin təmin edilməsi problemi ön plana çəkildi. Yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinə təminat, respublikamızın müstəqilliyinin qorunub saxlanmasının vacib məqsədi kimi qiymətləndirildi. Ona görə də yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsinə dair kompleks tədqiqat işinin yerinə yetirilməsi obyektiv zərurətdən irəli gəlmişdir.

**Problemin öyrənilmə səviyyəsi**. Respublika iqtisadi sisteminin qloballaşma prosesinə transformasiyası dövründə yeyinti sənayesi məhsulları istehsal kompleksinin yenidən qurulması, keyfiyyətinin yüksəldilməsi, təhlükəsizliyinin və rəqabət qabiliyyətliliyinin təmin

edilməsi, istehlak bazarının yerli istehsal hesabına təmin edilməsi və tənzimlənməsi xarici bazarlara çıxışı təmin etmək məsələləri ilə əlaqədar respublikamızın və xarici ölkələrin iqtisadçı alimləri tərəfindən geniş tədqiqatlar aparılmışdır.

Azərbaycanın iqtisadçı alimlərindən İ.H.Alıyev, A.K.Ələsgərov, A.B.Abbasov, Ə.İ.Əhmədov, C.M.Abbasov, N.R.Məmmədov, N.X.Musayev, A.M.Qafarov, H.A.Xəlilov, E.Fərzəliyev, Ə.Əliyev, K.R.Paşayev, M.İ.Mehdiyev, Ə.C.Əhmədov, X.M.Yahudov, R.M.Cəbiyev, N.A.Qasımov, H.A.Əhmədov T.A.Nağıyev və digərlərinin əsərlərində, rus iqtisadçı alimlərindən E.V.Minko, A.E.Minko, V.P.Smirnov, İ.İ.Mazur, V.D.Şapiro, V.N.Koreşkov, N.A.İbraqimova, Q.P.Juravlyova və başqalarının monoqrafiya və elmi məqalələrində bu problemin nəzəri və praktiki aspektləri tədqiq edilmişdir.

Yuxarıda şərh edilən elmi araşdırmaların nəticələrini yüksək qiymətləndirməklə yanaşı qeyd etmək lazımdır ki, Azərbaycanın yeyinti sənayesinin inkişaf dinamikasının və xüsusiyyətlərinin, yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsi, təhlükəsizliyinin, rəqabətə davamlılığının və xarici bazara çıxışının təmin edilməsi, ölkə iqtisadiyyatının inkişafında onun rolunun araşdırılıb təhlil olunması və tənzimlənmə mexanizminin yeni iqtisadi münasibətlərin tələblərinə uyğun tədqiqi əsasında prioritet inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, problemin nəzəri və praktiki cəhətdən dərindən öyrənilməsi zərurətini yaratmışdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan Respublikasında yeyinti sənayesi məhsullarının istehsalı, keyfiyyətinin, təhlükəsizliyinin və istehlak bazarının tənzimlənməsinin elmi - nəzəri aspektlərini araşdırmaqla, yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinin təmin edilməsinin mövcud vəziyyəti və inkişaf meyllərini təhlil etməkdən, yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsi istiqamətində elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr hazırlamaqdan ibarətdir. Qeyd olunan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuş və həll edilmişdir:

- qloballaşma şəraitində, ərzaq problemi və onun həlli yolları, bazar iqtisadiyyatına keçidlə əlaqədar, xammalın, yeyinti məhsullarının kəmiyyəti, keyfiyyətinin, təhlükəsizliyinin və istehlak bazarının tənzimlənməsinin obyektiv zəruriliyi, spesifik xüsusiyyətlərinin və ona təsir edən amillərin müəyyənləşdirilməsi;

- ölkənin yeyinti sənayesi məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsində istehlak bazarının tənzimlənməsinin rolunun müəyyən edilməsi;

- milli iqtisadiyyatın ərzaq təhlükəsizliyinə nail olmaq məqsədi ilə istehlak bazarının qorunmasının mövcud vəziyyəti və inkişaf meyllərinin öyrənilməsi;

- həyata keçirilən aqrar islahatların təhlili, emal müəssisələrinə göndərilən xammalın keyfiyyətinin qiymətləndirilməsi və bu xammaldan istehsal edilən yeyinti məhsullarının keyfiyyətinə təsirinin öyrənilməsi;

- yeyinti sənayesi məhsullarının istehsal bazasının müasir vəziyyəti, bu sahədə elmi - texniki nailiyyətlərin tətbiqi səviyyəsinin müəyyənləşdirilməsi;

- yeyinti məhsullarının keyfiyyətinin və təhlükəsizliyinin təminatında standartlaşdırma və sertifikatlaşdırma amillərinin təhlili, mövcud vəziyyətin qiymətləndirilməsi;

- yeyinti sənayesi məhsullarının istehsalı, keyfiyyətinin yüksəldilməsində insan amilinin tədqiqi və mövcud vəziyyətin qiymətləndirilməsi ;

- yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinin dövlət tənzimlənməsi mexanizmlərinin və prioritet istiqamətlərinin müəyyənləşdirilməsi;

- istehlakçıların keyfiyyətli və onların sağlamlığının qorunub saxlanması üçün təhlükəsiz ərzaq məhsulları ilə təminatının təşkilatı - iqtisadi mexanizminin təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələrin hazırlanması.

**Tədqiqatın obyekti və predmeti:** Azərbaycan respublikasının aqrar bölməsi, yeyinti məhsullarının istehsalı, satışı, məhsulun keyfiyyətinə və təhlükəsizliyinə dövlət nəzarətinin tədqiqi, predmetini - qloballaşma şəraitində yeyinti sənayesi məhsullarının keyfiyyətinin yüksəldilməsi yolları təşkil edir.

**Tədqiqatın nəzəri - metodoloji əsasını** - iqtisad elmi klassiklərinin əsərləri, xarici ölkə və respublika iqtisadçı alimlərinin elmi tədqiqatları təşkil edir. Dissertasiyanın yazılmasında Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarından, normativ - hüquqi aktlardan, Azərbaycan Respublikası Konstitusiyası əsas müddəalarından, Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarından, BMT - nin yeyinti məhsullarının keyfiyyəti və təhlükəsizliyi üzrə "Kodeks Alimentarius" - komissiyasının qərarlarından, Avropa İqtisadi Birliyinin qərarlarından, elektron informasiya mənbələrindən və digər sənədlərdən istifadə

edilmişdir. Tədqiqat zamanı statistik - müqayisəli təhlil və sintez, məntiqi ümumiləşdirmə - qruplaşdırma və sair tədqiqat üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazasını** - Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin, Azərbaycan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin, Kənd Təsərrüfat Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, müvafiq məlumatları, Azərbaycan İqtisadi İnkişaf Nazirliyinin Elmi - Tədqiqat İnstitutunun, Azərbaycan Standartlar İnstitutunun, «Московский Государственный Университет пищевых производств» - elmi araşdırmaları və digər elmi - tədqiqat institutlarının apardığı elmi - tədqiqat işlərinin nəticələri təşkil edir.

**Tədqiqatın elmi yenilikləri -** aşağıdakılardan ibarətdir:

- qloballaşma şəraitində yeyinti məhsullarının keyfiyyəti və təhlükəsizliyinin təminatı və rəqabətə davamlılığı dünyada baş verən dəyişikliklərin xüsusiyyətləri elmi cəhətdən araşdırılmış, ümumiləşdirilmiş və qiymətləndirilmişdir.
- yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinin təmin edilməsi, keyfiyyətsiz xammaldan yüksək keyfiyyətli məhsul istehsalının qeyri – mümkünlüyü, keyfiyyətin mühüm iqtisadi göstərici olduğunu nəzərə alaraq, keyfiyyətsiz məhsulların və reklamasiyaların faizinin hesabat dövründə istehsal edilən ümumi məhsulun miqdarına nisbətdə faizinin Azərbaycan Dövlət Statistika Komitəsinin göstəriciləri siyahısına salınması labüdlüyü əsaslandırılmışdır.
- yeyinti məhsullarının keyfiyyəti və təhlükəsizliyi, rəqabətə davamlılıq şərti, kəmiyyətin və xarici bazara çıxışın başlıca amili kimi müəyyənləşdirilmiş və əsaslandırılmışdır.
- yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsi, müasir iqtisadiyyatın təşkilatı - iqtisadi mexanizminin formalaşmasına müvafiq, elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlanmışdır;
- yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinin təminatında mövcud problemlər müəyyən edilmiş və onların həlli istiqamətləri üzrə konkret əməli təklif və tövsiyələr işlənib hazırlanmışdır.

**Tədqiqat işinin nəzəri və praktiki əhəmiyyəti -** ondan ibarətdir ki, irəli sürülən təkliflərin həyata keçirilməsi yeyinti məhsullarının rəqabət qabiliyyətliliyinə və xarici bazara çıxışına, ölkə daxili yeyinti sənayesi müəssisələrində əməyin keyfiyyətinin və istehsal olunan məhsulların

keyfiyyətinə və təhlükəsizliyinə təminat verəcək, Azərbaycan İqtisadiyyatının daha sürətli inkişafına müsbət təsir edəcək.

**Tədqiqat nəticələrinin aprobasiyası.** Tədqiqat işinin nəticələri respublika, elmi – praktiki konfranslarda təqdim olunmuş, məruzələr edilmişdir. Dissertasiya işi üzrə 1 monoqrafiya, 2 – layihə Azərbaycan Respublikası yanında QHT – lərə Dövlət Dəstəyi Şurasının elan etdiyi müsabiqədə qalib elan edilmiş, yerli və xarici nüfuzlu elmi jurnallarda 9 elmi məqalə (2 – si xaricdə) cap olunmuşdur.

**Dissertasiya işinin strukturu.**

Dissertasiyanın quruluşu. Dissertasiya işi giriş, üç fəsil, nəticə və təkliflər, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işi kompüter yazısı ilə 163 səhifə həcmindədir. İşdə 7 cədvəl, 4 sxem, 8 şəkildən istifadə edilmişdir.

## Dissertasiya işinin mündəricatı

**Giriş.**

**Fəsil I. Yeyinti sənayesi məhsullarının keyfiyyətinin tədqiqinin nəzəri - metodoloji əsasları**

1.1 Qloballaşma şəraitində yeyinti məhsullarının keyfiyyətinin və rəqabət qabiliyyətliliyinin sosial – iqtisadi mahiyyəti.

1.2 Keyfiyyət anlayışının təkamülü və inkişafı.

1.3. Yeyinti məhsullarının keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi metodları

**Fəsil II. Azərbaycanda yeyinti məhsullarının keyfiyyətinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi**

2.1 Yeyinti sənayesi məhsullarının istehsalının mövcud vəziyyətinin kompleks təhlili.

2.2 Standartlaşdırmanın və sertifikatlaşdırmanın yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsində rolu

2.3. İstehsalın müasir texnoloji avadanlıqlar və metroloji cihazlarla təminatının, yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsinə təsiri.

**Fəsil III. Yeyinti sənayesi məhsullarının keyfiyyətinin yüksəldilməsinin əsas istiqamətləri.**

3.1 Yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsində mövcud problemlərin həlli yolları

3.2 Yeyinti məhsullarının keyfiyyəti və təhlükəsizliyinin təmin edilməsində insan amilinin rolu.

3.3 Yeyinti sənayesi müəssisələrində keyfiyyət menecment sisteminin tətbiqi, məhsulların keyfiyyətinin yüksəldilməsi, rəqabət qabiliyyətliliyi və ixracının artırılması.

**Nəticə və təkliflər**

**İstifadə edilmiş ədəbiyyat siyahısı**

## MÜDAFİƏYƏ TƏQDİM EDİLƏN ƏSAS ELMİ MÜDDƏALAR

**1. Azərbaycan Respublikasında yeyinti sənayesi məhsullarının keyfiyyəti kompleks idarə olunmur, keyfiyyətin maddi-texniki bazasının təminatına vəsait ayrılmır, müəssisələrdə xammalın və köməkçi materialların, istehsal edilən məhsulların keyfiyyətinə nəzarət edən strukturlar ləğv edilib, keyfiyyət və uyğunluq sertifikatlaşdırma sistemi respublika iqtisadiyyatının sürətli inkişaf səviyyəsinə cavab vermir.**

Keyfiyyət - yeyinti sənayesi məhsullarının qidalanma üçün yararlı olmasıdır. Keyfiyyət – çox əsrli inkişaf yolu keçib və tələblər təkmilləşdikcə, istehsal imkanları artdıqca, inkişaf edib. Məhsulun keyfiyyəti onun xüsusiyyətlərini müəyyən edən kəmiyyət ölçülməsi əsasında balla qiymətləndirilir.

Yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsi, həyatımızın keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Məhsulun keyfiyyətini istehlakçı müəyyən etdiyi üçün, daimi keyfiyyət səviyyəsi anlayışı ola bilməz. Keyfiyyət yüksələn xətt üzrə inkişaf edir, ona görə ki keyfiyyət fasiləsiz dəyişən məqsəddir.

Məhsulun keyfiyyəti - əməyin keyfiyyətinin, xammalın, ətraf mühitin tərkib hissəsi olan - havanın, suyun, əmək əşyalarının, əmək vasitələrinin, texnologiyanın, idarəetmənin bütövlükdə istehsal mühitinin keyfiyyətinin nəticəsidir. Əhalinin qidalanmasının vəziyyəti mühüm amil olaraq, əhəmiyyətli dərəcədə əhalinin sağlamlığının və genefondunun qorunub saxlanmasını müəyyən edir.

Yeyinti sənayesi müəssisələrində insan əməyinin qiymətləndirilməsi müasir dövrün tələblərinə cavab vermir, əmək şəraiti aşağı səviyyədədir, işçilər xüsusi geyimlə təmin edilmirlər, əməklərinin monoton, üzücü, növbəli, əksər hallarda yüksək temperatur şəraitində işləmələrinə baxmayaraq, əmək haqları və əmək pensiyaları aşağıdır, işə qəbul edilərkən müqavilə bağlanmır, vaxtlı - vaxtında məzuniyyətə buraxılmır, keyfiyyətli əməklə, keyfiyyətsiz əməyin təhlili aparılmır, nəticədə hər iki əməkçinin əməyi eyni məvaciblə qiymətləndirilir, peşə bayramları qeyd olunmur, ali

təhsilli mütəxəssislərə etinasız münasibət bəslənir, tədqiqatlar göstərir ki, bir mütəxəssisin nəzəri və praktiki biliklərinin vəhdət təşkil etməsinə, mütəxəssis kimi yetişməsinə, kadr kimi formalaşmasına nail olmağa 25 - 30 il müddət keçir, dövlət böyük məbləğ vəsait sərf edir, mütəxəssislərə belə münasibət dövlətə çox baha başa gəlir, maarifləndirmənin səviyyəsi, ixtisaslarının artırılması, texniki peşə məktəblərində peşəkar fəhlə potensialının yetişdirilməsinə böyük ehtiyac duyulur, şüurun səviyyəsinin yüksəldilməsinə ikinci dərəcəli məsələ kimi yanaşılır, respublikamızda mənəvi - psixoloji keyfiyyət mühiti formalaşmamışdır.

Aparılan tədqiqatlar keyfiyyətin yüksəldilməsi üçün məqsədyönlü fasiləsiz strateji, taktiki tədbirlərin həyata keçirilməsini diktə edir:

- insan amilinin rolunu yüksəltmək;
- əməyin motivasiyasını gücləndirmək;
- fasiləsiz olaraq, maarifləndirməni davam etdirmək - şüurun inkişaf səviyyəsini yüksəltmək;
- dövlət keyfiyyət şurası yaratmaq;
- maddi və mənəvi stimullaşdırmanı gücləndirmək;
- yeyinti sənayesi üzrə "Dövlət keyfiyyət " mükafatı təsis etmək;
- yeyinti sənayesi sahəsinin "əməkdar işçisi" rütbəsini təsis etmək;
- müəssisələrdə keyfiyyət şuraları və keyfiyyət salonları yaratmaq;
- respublika üzrə mənəvi-psixoloji keyfiyyət mühiti formalaşdırmaq.

**2. Yeyinti sənayesi məhsulları istehsalının maddi - texniki bazası, istehlakçıların müasir tələblərinə müvafiq olaraq keyfiyyət səviyyəsinə cavab vermir.**

Elmi - texniki tərəqqinin mütərəqqi formalarının təcrübədə tətbiqi, istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması, beynəlxalq təcrübədən geridə qalır, əl əməyinin səviyyəsi yüksəkdir, yeyinti sənayesi müəssisələrinin istehsalın ekstensiv inkişaf yolunu seçməsi, bu sahədə səmərəliliyi aşağı salır. Emal müəssisələrinə qəbul edilən xammalın keyfiyyəti müşayiət edici sənədlərin göstəriciləri ilə uyğun gəlmir, müəssisələrdə istehsal texnologiyasının gedişatına, xammal və materialların keyfiyyətinə, hazır məhsulun keyfiyyətinə, saxlanmasına, nəqlinə, satışına, sanitar normalara riayət edilməsinə, işçilərin sanitar – gigiyena qaydalarına riayət etməsinə nəzarət edən Texniki Nəzarət Şöbələri və laboratoriyalar ləğv edilib, emal müəssisələri xammalın və buraxılan məhsulun fiziki - kimyəvi, mikrobioloji təhlilini aparmaq imkanından məhrum ediliblər. Metroloji cihazlarla təminat yox dərəcəsindədir, məhsulun tərkibinə inqrediyentlər "dozator" - lar olmadığından, gözə yarı daxil edilir, peşəkar kadr potensialı yoxdur; əksər hallarda yeyinti müəssisələrinin çoxunda qeyri - peşəkar qohum - əqrəba, tanışlıq, qonşuluq münasibətlərinə görə işə

qəbul edilirlər, əsasən ucuz fəhlə qüvvəsinə üstünlük verilir, enerji daşıyıcıları ilə təchizatda fasilələr olur, qazın təzyiqi stabil olmur, bəzən hava qarışığı çox olur, xammalın və hazır məhsulun yüklənməsi və boşaldılması prosesləri beynəlxalq aləmdə olduğu kimi avtomatlaşdırılmadığı üçün istehsalın səmərəliliyini aşağı salır, xammalın və hazır məhsulun daşınması üçün istifadə edilən nəqliyyat vasitələri müasir tələblərə cavab vermir, nəqliyyat vasitələrinin tibbi kitabçaları yoxdur, nəqliyyat vasitələrinə normativ - texniki sənədlərdə müəyyən edilmiş normalardan artıq məhsul yüklənmə hallarına yol verilir ki, bu da məhsulun deformasiyaya uğramasına səbəb olur. Emal müəssisələrinə xüsusi tibbi müayinədən keçməmiş şəxslərin buraxılmasına yol verilir. Kənd Təsərrüfatı Nazirliyinin Tədarük strukturları ləğv edilmişdir, bu istehlak bazarına göndərilən məhsulun, xüsusilə emal müəssisələrinə göndərilən xammalın keyfiyyətinə böyük zərbədir, nəticədə taxılın nəqlində mövcud olan nöqsanlarla yanaşı taxıl sovrulmur, çeşidlənmir, yuyulmur, qurudulmur, meyvə tərəvəz çeşidlənmir, keyfiyyətsiz malla keyfiyyətli mal qarışıq şəkildə, təmizlənmədən istehlak bazarına göndərilir.

**3. İdarəetmə iqtisadiyyatın başqa sahələrində olduğu kimi, yeyinti sənayesində də keyfiyyətin yüksəldilməsi məsələlərində mühüm əhəmiyyət kəsb edir, buna baxmayaraq, bu sahədə idarə edən strukturlar ləğv edilmişdir, iqtisadiyyatın idarəedilməsində mövcud olan nöqsanlardan ən mühümü, müəyyən strukturu ləğv edərkən, mütəxəssis fikrini öyrənmədən, bu addımın dövlətə nəyin bahasına başa gələcəyini müəyyənləşdirmədən atılmasıdır, MDB - in aparıcı ölkələrinin hamısında yeyinti sənayesində idarəetmə strukturlarının, Elmlər Akademiyasının nəzdində Qida Elmi - Tədqiqat İnstitutlarının və onların nəzdində Təcrübə-sınaq müəssisələrinin fəaliyyət göstərməsinə baxmayaraq, respublikamızda bu strukturlar yoxdur.**

İdarəetmədə müəyyən addımı atmadan analitik təhlil etməyi bacarmaq və düzgün məntiqi nəticə çıxarmaq, sonra isə addım atmaq qabiliyyəti mühüm əhəmiyyət kəsb edir, idarəetmədə dövlət məmurunun, məsul işçinin söylədiyi söz və əməlinin vəhdəti vacibdir, buraxdığı səhvləri görməyi bacarmaq, tənqidi yanaşmaq, düzgün nəticə çıxarmaq qabiliyyəti mütləqdir, idarəetmədə mövcud olan nöqsanlar birbaşa mövcud kadr siyasəti ilə əlaqədardır. Bütün bunlar birinci növbədə əməyin keyfiyyətini yüksəltməyi tələb edir və yeyinti sənayesi məhsullarının keyfiyyətinin yüksəldilməsində potensial imkanlardır.

Cəmiyyətin müasir inkişafı elmin, texnikanın, istehsalın, daha doğrusu elmi – texniki tərəqqinin sürətli, intensiv prosesi ilə xarakterizə

edilir. Elm və istehsalatın sıx inteqrasiyası bazar münasibətləri şəraitində Azərbaycan iqtisadiyyatının ən mühüm vəzifələrindən biridir. Texniki tərəqqi özünü iki formada büruzə verir:

1) Yeni və yaxud yaxşılaşdırılmış istehsal metodlarına keçid;

2) Yeni məhsulların yaradılması və yaxud tanış məhsullara yeni keyfiyyətlərin verilməsi.

Şərh olunanların reallaşması üçün yeyinti sənayesinin inkişafını, yeni texnoloji istehsal proseslərini işləyib hazırlayan yeni yeyinti məhsullarının yaradılması problemləri sahəsində fundamental tədqiqatlar aparan AMEA – nın Qida Elmi – Tədqiqat İnstitutu və bu institutun nəzdində - sınaq müəssisəsi olmalıdır .

**4. Keyfiyyət - əmək fəaliyyətinin əsas strateji məqsədi kimi bütün mərhələlərdə ali rəhbərlik tərəfindən qəbul edilməli və müasir dövrün tələbləri səviyyəsində idarə edilməlidir. Əmək fəaliyyətində peşəkarlıq, intellekt, mədəniyyət, mənəviyyat, şəffaflıq, vicdan və yüksək məsuliyyət səviyyəsinə təminat verilməlidir. Yeyinti məhsullarının keyfiyyətinə kompleks yanaşma ilə əlaqədar ölkəmizin BTT - Beynəlxalq Ticarət Təşkilatına üzvlüyə hazırlaşması ilə əlaqədar yeni qanun aktlarında keyfiyyətsiz məhsul istehsalına görə məsuliyyət artırılmalı, müəssisələrdə yalnız hazır məhsulun deyil, birinci növbədə xammal və materialların keyfiyyətinə nəzarət etmək, keyfiyyətsiz məhsul istehsalını doğuran bütün səbəbləri müəyyənləşdirmək və onlarla mübarizəni gücləndirmək lazımdır.**

Nəzarət orqanları, müəssisə rəhbəri ilə birlikdə xammal, əlavə materiallar və enerji daşıyıcıları təchizatçıları məhsulun keyfiyyətinə görə məsuliyyət daşımalıdırlar. Respublika Dövlət Statistika Komitəsinin göstəricilərində yeni qanunvericilik aktlarına görə keyfiyyət göstəriciləri mühüm iqtisadi göstərici kimi başqa iqtisadi göstəricilərlə yanaşı öz şərhini tapmalıdır; - normativ - texniki sənədlərin tələblərinə görə, istehsal olunan məhsula nisbətdə hesabat dövründə istehsalatda aktlaşdırılmış zay məhsulun ümumi miqdarı və faizi  ekspedisiyada sənədləşdirilmiş zay məhsulun ümumi miqdarı və faizi  bu göstəricilər normativ - texniki sənədlərin tələblərinə müvafiq olaraq, qiymətləndirilməli və öz şərhini tapmalıdır. Əməyin humanistləşdirilməsinə və əməyin keyfiyyətinin yüksəldilməsində onun roluna xüsusi diqqət yetirilməlidir.

Respublikamızda satışa buraxılan məhsulların keyfiyyəti və təhlükəsizliyinin təminatı üzrə sistemini yaradan proqram tərtib edərkən, vacibdir ki, əhalinin keyfiyyətli və təhlükəsiz yeyinti məhsulları

istehlakının təminatı sahəsində hüquqlarını təmin etmək məqsədilə proqramın aşağıda göstərilən əsas şərtlərini müəyyən etsin:

- "Yeyinti məhsullarının keyfiyyəti və təhlükəsizliyinin yüksəldilməsi" üzrə respublika məqsədyönlü proqramı təsdiq edilsin;
- respublika ərzaq bazarına keyfiyyətsiz və insan orqanizmi və həyatı üçün təhlükəli ola biləcək, saxtalaşdırılmış yeyinti məhsullarının düşməsinin qarşısını almaq məqsədilə tədbirlərin həyata keçirilməsi;
- beynəlxalq standartların tələblərinə cavab verən yüksək keyfiyyətli məhsulların istehsalının həcminin artırılmasının stimullaşdırılması;
- müalicəvi - profilaktiki yönümlü, mikronutriyentlərlə zənginləşdirilmiş yeyinti məhsullarının istehsalının həcminin artırılmasının stimullaşdırılması;
- qeyri-təbii komponentlərin və genetik modifikasiya edilmiş orqanizmlərdən (GMO) istifadə edilmədən hazırlanmış yeyinti məhsullarının könüllü sertifikatlaşdırılmasının və göstərilən sistemin uyğunluq işarəsinin işlənib hazırlanması və tətbiqi ;
- əhali arasında yeyinti məhsullarının keyfiyyəti və təhlükəsizliyi haqda maarifləndirmə, informasiya bolluğu yaratmaq və bu məqsədlə tədbirlər həyata keçirmək;

Tərkibində GMO olan yeyinti məhsullarının istehlak bazarına düşməsinin qarşısını almaq məqsədilə nəzarəti gücləndirmək və müxtəlif ölkələrdən gətirilən yeyinti məhsullarının Laboratoriya tədqiqini keçirmək lazımdır.

Proqramın ikinci səmti – respublikamızda yüksək keyfiyyətli yeyinti məhsullarının istehsalı ilə məşğul olan istehsalçıların stimullaşdırılmasıdır:

- istehsal müəssisələrinin keyfiyyətin ekspress analizatorlarla, texnokimyəvi və mikrobioloji nəzarətin keçirilməsi üçün laboratoriya kompleksləri ilə təmin edilməsi;
- yüksək təbii yeyinti və bioloji keyfiyyətə malik olan mikronutriyentlərlə zənginləşdirilmiş yeyinti məhsullarının istehsal həcminin yüksəldilməsi;
- qeyri-təbii komponentlər (GMO) tətbiq edilmədən hazırlanan yeyinti məhsullarının könüllü sertifikatlaşdırma sisteminin işlənib hazırlanması.

Bu sertifikatlaşdırma və markalama sisteminin tətbiqi ticarət şəbəkəsində istehlakçılara imkan yaradacaq ki, yüksək keyfiyyətli təbii yeyinti məhsulunu, tərkibində sintetik ətirvericilər, rənglər, konservantlar, genetik modifikasiya edilmiş orqanizmlər olan məhsullardan fərqləndirə bilsinlər. Bu məhsulların irəliləməsi üçün marketinq proqramı işləyib

hazırlamaq məhsulların respublika təbii məhsul istehsalçılarının assosiasiyasını yaratmaq tələbatı yaranır. Respublika məhsul istehsalçıları üçün xüsusi markalama nəzərdə tutan təbii məhsulun irəliləməsi marketinq proqramı unikal şansdır. Markalanmış təbii məhsullar - məhsulların xüsusi sinfidir və həm respublikada və həm də xarici bazarda yüksək alıcılıq qabiliyyətinə malikdir. Bazar iqtisadiyyatına keçidlə, respublikanın dünya bazarına inteqrasiyası ilə əlaqədar sənaye müəssisələri bütövlükdə eləcə də yeyinti sənayesi qarşısında istehsalın səmərəliliyini, elmi – texniki tərəqqinin nailiyyətlərinin tətbiqi əsasında, səmərəli təsərrüfatçılıq formalarının və işçi heyətini idarəetmənin müasir metodlarının tətbiqi əsasında məhsulun rəqabətə davamlılığının yüksəldilməsi vəzifəsi durur. İqtisadi stimullaşdırma sisteminin düzgün təşkili və istifadəsi istehsalın elmi - əsaslandırılmasını təsdiqləyir və onların reallaşmasını sürətləndirir. İqtisadi stimullaşdırma sistemi əldə edilən mənfəətə söykənir. Mənfəət müəssisədə məhsulun satışından əldə edilir, (qiymət - məhsulun istehsalına çəkilən xərclərin və məhsulun maya dəyərinin fərqidir). Müəssisələrin və ayrı-ayrı işçilərin yüksək istehsal göstəricilərinin əldə edilməsinə görə stimullaşdırılması, istehsalın rentabelliyini yaxşılaşdırır, səmərəliliyini artırır, mənfəətin daha da çoxalmasına, istehsal edilən məhsulun keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinin təmin edilməsinə işçilərin öz əməyinə yüksək məsuliyyət hissi ilə yanaşmağa, əməyin keyfiyyətini yüksəltməyə, işçilərin psixoloji durumunu, əhval – ruhiyyəsini yaxşılaşdırmağa daha yüksək əmək göstəriciləri əldə etməyə, müəssisənin imicini yüksəltməyə xidmət edir. Mənəvi stimullaşdırma metodları məhsulun keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayır. Məhsulun işlərin, xidmətlərin keyfiyyəti hər bir əmək kollektivinin və əmək kollektivlərinin üzvlərinin əmək nəticələrinin ictimai qiymətləndirilməsində mühüm rol oynayır. Əməyin maddi və mənəvi stimullaşdırılması, istehsal edilən məhsulun keyfiyyətinin yüksəldilməsində başlıca rol oynamaqla yanaşı istehsalın gələcək inkişafına təkan verir, müəssisənin bütün göstəricilərini o cümlədən gəlirini çoxaldır, müəssisə qarşısında əlverişli perspektivlər açır. Aparılan tədqiqatlar göstərir ki, bir stimullaşdırma metodu da var ki, əslində özündə şərh etdiyimiz bütün stimullaşdırma metodlarını birləşdirir. Bu metod da tutduğu vəzifədə irəliləmədir ki, daha yüksək məvacib (iqtisadi motiv), maraqlı və məzmunlu iş (təşkilatı motiv), eyni zamanda şəxsiyyətin daha yüksək statuslu qrupa keçmək yolu ilə onun xidmətlərini və avtoritetini tanımaqdan ibarətdir (mənəvi motiv).

**5. Keyfiyyətin yüksəldilməsində, keyfiyyətli əməklə keyfiyyətsiz əməyə fərq qoyulması, maddi və mənəvi stimullaşdırılmanı**

**yüksəltmək, bütün səviyyələrdə qəbul edilən qərarların keyfiyyətli icrasına təminat verilməsi, keyfiyyətli məhsul buraxılışında işçi heyətin hər bir üzvünün maraqlı olmasına təminat, dövlət miqyasında keyfiyyətə nəzarətin obyektivliyinə təminat verilməsi, əməyin və məhsulun keyfiyyətinin yüksəldilməsinin müasir iqtisadiyyatın strateji xətti kimi qəbul edilməsini diktə edir.**

Emal müəssisələrində elmi - texniki tərəqqinin sürətləndirilməsi tempinə təsir edən amillərin kompleks şəkildə təhlil edilməsi, bazar iqtisadiyyatının təkmilləşdirilməsi mexanizminin elmi - texniki tərəqqinin, ümumi kompüter və idarəetmə savadlılığının sürətləndirilməsi əsasında inkişafı ölkəmiz üçün xüsusilə aktualdır.

Müasir dövrdə keyfiyyət Avropa ölkələrinin rəqabətə davamlılığının təminatı amili olmuşdur. Belə strategiyanın reallaşması üçün:

1. ümumi qanunvericilik tələbləri;
2. ümumi standartlar;
3. müəssisə və firmaların, Avropa bazarının tələblərinə uyğunluğunun ümumi monitorinqi proseslərini formalaşdırmaq tələb olunur.

Keyfiyyət problemlərinin həllinə Avropa yanaşmasını fərqləndirən xüsusiyyətlər aşağıdakılardır:

- keyfiyyətin qiymətləndirilməsi və təsdiqlənməsi ilə bağlı bütün işlərin keçirilməsi üçün Qanunvericilik bazasının mövcud olması;
- milli standartların tələblərinin, sertifikatlaşdırma qayda və prosedurlarının harmoniyası;
- məhsulun keyfiyyətinin sertifikatlaşdırılması, laboratoriyaların bərpası və akkreditasiyası, keyfiyyət üzrə xüsusi NTS – normativ – texniki sənədlərin qeydiyyatının keçirilməsi səlahiyyəti verilən regional infrastrukturun və milli təşkilatlar şəbəkəsinin yaradılması;

**6. Bir çox əsas məhsulların adambaşına düşən faktiki istehlakına görə Azərbaycan səmərəli istehlak normalarından geridə qalır, respublika əhalisinin yeyinti məhsullarına olan tələbatı başlıca olaraq, kənd təsərrüfatının inkişaf səviyyəsi və yeyinti sənayesinin inkişafından və maliyyə təminatından asılıdır.**

Yeyinti məhsulları istehsalı texnologiyaları sürətlə dəyişir. Bu gün nanotexnologiyalardan, biotexnologiyalar və bioekonomikadan, elmin inkişafının əsas istiqamətləri kimi məhsulun rəqabətə davamlılığına təminatdan, eyni zamanda yeyinti məhsullarından danışılır. Müasir insanın həyat tərzi, əmək fəaliyyətinin xüsusiyyətləri və xarici görünüşü əhəmiyyətli dərəcədə keçmiş dövrlərin müasirlərinin həyat tərzindən

fərqlənir. Müvafiq olaraq, onun qidalanması da dəyişib. Bilavasitə təbii qida məhsulları ilə qidalanmaq imkanları azalır. Bu sahədə Rusiya Federasiyasının «Нижний Новгород» şəhərinin yeyinti sənayesi müəssisələrinin təbii yeyinti məhsullarının istehsalına üstünlük verməsi təcrübəsi respublikamız üçün əhəmiyyət kəsb edir. Onlar təbii yeyinti məhsullarının istehsalına üstünlük verir və könüllü sertifikatlaşdırma sistemini tətbiq edirlər. Respublikamızda isə gözəl təbiət və iqlim şəraitinin olmasına baxmayaraq, marketlər və bazarlarımız modifikasiya edilmiş meyvə və tərəvəz məhsulları ilə doldurulmuşdur. Respublikamızda uşaq qida məhsulları istehsal edilmir. Onların istehsalı üçün xammal bazası yoxdur. Ölkəmizə idxal edilən yeyinti məhsullarının, diyetik və uşaq qida məhsullarının fiziki-kimyəvi və mikrobioloji təhlili aparılmır, uşaq xəstəlikləri artır. Genefondumuz təhlükə altındadır. Yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsində yeni çeşidli məhsulların istehsalının artırılması mühüm əhəmiyyət kəsb edir.

**7. Yeyinti sənayesi məhsullarının keyfiyyəti problemi emal müəssisələri çərçivəsində həll edilə bilməz, müəssisələr kənd təsərrüfatı məhsullarının emalı ilə bilavasitə məşğul olduğu üçün, kənd təsərrüfatı - yeyinti sənayesinin xammal bazasıdır, ticarət sektoru emal müəssisələrinin məhsullarının satış bazasıdır, məhsulların istehlakına olan sifarişin səviyyəsindən emal müəssisələrinin səmərəli fəaliyyəti bilavasitə asılıdır.** Bunlardan başqa nəqliyyat təşkilatları, əlavə xammal və materialların, metroloji cihazların, texnoloji avadanlıqlar, enerji daşıyıcıları təchizatı ilə məşğul olan strukturlar, nəzarət orqanları və b. Azərbaycanda Dövlət tərəfindən beynəlxalq təcrübədən yararlanaraq, keyfiyyət üzrə xüsusi Dövlət mükafatının təsis edilməsi tələbi diktə edilir.

Respublikamızda bu sahəni idarəetmə strukturu yoxdur. Bu sahənin gələcək inkişafının strategiyasını və taktikasını müəyyən edən yeyinti sənayesi məhsulları istehsal edən müəssisələrin zəruri problemlərini müzakirəyə çıxardan, dövlətlə dialoqa gedən və bu vacib problemləri həll edən struktur yoxdur. Yeyinti sənayesində elmi – texniki tərəqqini inkişaf etdirmək, diyetik məhsulların istehsalında mövcud olan problemləri aradan qaldırmaq, insan orqanizmi üçün təhlükə törədə biləcək amillərin qarşısını almaq sahəsində tədqiqatlar aparmaqla aktual problemlərin həlli yollarını elmi surətdə həyata keçirən elmi – tədqiqat institutu onun nəzdində cınaq müəssisəsi yoxdur. MDB - nin aparıcı ölkələri  - Rusiyada, Belorusiyada, Ukraynada və digər ölkələrində belə idarəetmə strukturları və institutlar, sınaq müəssisələri var və fəaliyyət göstərirlər. Azərbaycan suveren dövlətdir, iqtisadiyyatı sürətlə inkişaf edir. Ölkəmizin beynəlxalq aləmdə

imici günbəgün artır. Bütün bunlara baxmayaraq, texnoloji avadanlıqlar xaricdən idxal edildiyi üçün milyonlarla valyuta xaricə axmaqda davam edir. Ortaya sual çıxır niyə yeyinti məhsullarının istehsalı üçün texnoloji avadanlıqlar istehsal edən müəssisə tikib istifadəyə verməyək, bu avadanlıqları ölkənin daxili ehtiyaclarının ödənilməsinə, sahibkarlıq mühitinin yaxşılaşdırılmasına, və satışını təşkil edərək, valyuta axınını Azərbaycana yönəltməyə, qeyri-neft sektorunun daha da sürətli inkişafına nail olmayaq? Niyə yeyinti məhsullarının keyfiyyətini Kompleks idarəetməyə nail olmayaq? Niyə yeyinti məhsullarının təhlükəsizliyinə təminat verən HASSP – sistemini tətbiq etməyək?

Əkinçilik və maldarlıq xammalının keyfiyyətinin pisləşməsi, ekoloji səbəblərdən emal müəssisələri üçün xammalın texnoloji xarakteristikasını dəyişir. Hazır məhsulun çıxar norması kəskin surətdə azalır, xammalın çıxıntıları çoxalır, saxlama müddəti azalır. Son illərdə unun çıxar norması, şəkər yaratma xüsusiyyətləri, yapışqanlığı, şəkər çuğundurunun şəkərliliyi, günəbaxanının yağlılığı, kartofun kraxmallılığı, süddə zülal və yağ, tərəvəzdə quru maddələrin miqdarı nəzərə çarpacaq dərəcədə azalıb. İstehsal edilən kartofun 50% - i standartların tələblərinə cavab vermir. Tərkibində ziyanverici maddələrin yüksək olmasına görə, hazırlanan südün tərkibinə ətraf mühitdən düşən 20% - dən 50% - ə qədər, süd uşaq qidası hazırlamaq üçün yararsızdır. Məhsulların təhlükəsizliyi haqda mülahizə yürüdərkən, ilk növbədə onların istehsalı üçün ekoloji təmiz xammalın xüsusi əhəmiyyət kəsb etməsini nəzərdən qaçırmaq olmaz.

Bu problemi Dövlət səviyyəsində, eləcə də regionlarda həll etmək lazımdır. Kənd təsərrüfat məhsullarının sertifikatlaşdırılmasına yanaşmanı köklü surətdə dəyişmək tələb olunur. Azərbaycan Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən təxirə salınmadan fermer təsərrüfatlarının və başqa müəssisələrin dünya ekoloji kənd təsərrüfatı qayda və prosedurları bazasında sertifikatlaşdırılmasının yaradılması üçün işlərə başlamaq lazımdır. Kənd təsərrüfat məhsullarının sertifikatlaşdırılmasına yanaşmanı köklü surətdə dəyişmək tələb olunur.

**8. Keyfiyyət problemi – kompleks problemdir, onu həll etmək üçün eyni müddətdə qanunvericilik, iqtisadiyyat, texnika, təhsil, tərbiyə sahəsində müvafiq siyasət aparıldıqda, eləcə də istehsalçıların və istehlakçıların, elmi və mühəndislik strukturlarının, qanunvericilik və idarəetmə orqanlarının işinin koordinasiya edilməsi əsasında mümkündür.**

Keyfiyyəti idarəetmə sahəsində Dövlət Standartlaşdırma Komitəsinin texniki, siyasi beynəlxalq İSO standartlarının tələblərinə müvafiq olaraq,

respublika yeyinti sənayesi müəssisələrində məhsul istehsalçılarına keyfiyyət sisteminin tətbiqində köməklik göstərmək nəzərdə tutulur.

**Yeyinti sənayesi məhsullarının keyfiyyətinin yüksəldilməsi yolları**

- Xammalın keyfiyyətinin yaxşılaşdırılması
- Elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi
- Əməyin təşkili, ixtisasartırma, əməyin keyfiyyətinə təminat
- İqtisadi və mənəvi stimullaşdırma

- Xammalın keyfiyyətinin yüksəldilməsini təmin edən aqro- texniki tədbirlər kompleksi
- Yeyinti sənayesinin tələblərini nəzərə almaqla xammalın standartlara uyğunluğu
- Texnoloji prosesin təkmilləşdirilməsi
- Məhsulların qidalılıq dəyərinin yüksəldilməsi
- Xammalın keyfiyyətinin yaxşılaşdırılmasının maddi stimullaşdırılması
- Nəzarət vasitələrinin keyfiyyəti və idarəetmə metodlarının təkmilləşdirilməsi
- Keyfiyyət və təhlükəsizlik HASSP – menecment sisteminin tətbiqi.
- Beynəlxalq İSO– 22000 -2005, HASSP standartlarının tətbiqi.

Öz növbəsində tədqiqatların və təcrübənin göstərdiyi kimi məhsulun keyfiyyət səviyyəsi tələblərə cavab vermədikdə, aşağıdakı itgilərə məruz qalır:

**1. İqtisadi itkilər:**

- Məhsulun hazırlanmasına, nəqlinə və məsulun saxlanmasına sərf edilən maddi və əmək resurslarının itkisi.
- İstehsal infrastrukturunun – pis saxlanma vasitələri elevatorlar) pis kommunikasiyalar, pis rabitə və s.
- Texnikanın təmirinə əlavə məsrəflər.

- İxrac olunan məhsulun keyfiyyətinin payının aşağı olmasına görə valyuta axınının azalması.

- Texnika və müxtəlif xalq təsərrüfatı mallarının idxalına görə əlavə valyuta vəsaitlərinin itkisi.

- Keyfiyyətə texniki nəzarətin aparılmasına sərf olunan maddi və əmək resurslarının əlavə məsrəfləri.

**2. Sosial itkilər:**

- Yerli məhsul çatışmamazlığı.
- Milli müəssisələrdə hazırlanan məhsulun prestijinin aşağı düşməsi.
- İstehsalın tələblərinin tam ödənilməməsi.
- Əhalinin maddi rifah halının aşağı düşməsi.
- Kollektivdə mənəvi durumun pisləşməsi.
- Müəssisənin gəlirinin azalması.

**3. Ekoloji itkilər və s.**

Son illər keyfiyyətin idarə olunmasına yeni yanaşma, və strategiya formalaşıb. Bu aşağıdakı amillərlə xarakterizə edilir:

- keyfiyyət hər hansı bir bölmə tərəfindən həyata keçirilən texniki funksiya deyil, firma və ya müəssisənin bütün struktur bölmələrini əhatə edən sistematik prosesdir.

- yeni keyfiyyət anlamına müəssisənin müvafiq təşkilatı strukturu cavab verməlidir;

- keyfiyyət məsələləri yalnız istehsalat çərçivəsində deyil, eyni zamanda layihələşdirmə, quraşdırma, təchizat, marketinq və satışdan sonrakı xidmətlər prosesini də əhatə edir; - keyfiyyət istehsalçıların deyil, istehlakçıların tələblərinin ödənilməsinə yönəlməlidir;

- məhsulun keyfiyyətinin yüksəldilməsi istehsalatda yeni texnologiyanın tətbiqi, bütün istehsal proseslərinin, o cümlədən məhsulun keyfiyyətinin yoxlanması zamanı ölçülmə proseslərinin avtomatlaşdırılmasını tələb edir.

- keyfiyyətin yüksəldilməsi firma və ya müəssisənin, bütün işçilərin maraqları ilə təmin edilir.

ABŞ, Yaponiya və Qərbi Avropa ölkələrinin aparıcı firmaları tərəfindən keçirilən keyfiyyətə ümumi nəzarət – üç əsas şərti birləşdirir:

1. Keyfiyyət - fəaliyyətinin əsas strateji məqsədi kimi firmanın ali rəhbərliyi tərəfindən qəbul edilir. Bu halda konkret vəzifə təyin edilir və onların həlli üçün vəsait ayrılır.

2. Keyfiyyətin yüksəldilməsi üzrə tədbirlər firma və müəssisənin bütün bölmələrini əhatə etməlidir.

Təcrübə göstərir ki, tədbirlərin 80 – 90% - i keyfiyyət və etibarlılıq şöbələri tərəfindən yoxlanılmır.

Xüsusi diqqət «НИОКР»-mərhələlərinin keyfiyyətinin yüksəldilməsinə verilir, bu da yeni məmulatların yaranmasının müddətinin kəskin surətdə qısalması ilə şərtlənir.

3. Davamlı tədris – öyrətmə ( müəyyən iş yerinə yönəlmiş ) və heyətin “motivasiya” – sının yüksəldilməsinə yönəlmişdir.

**9. Keyfiyyət probleminin həllinin müasir yolu - beynəlxalq təcrübəyə əsaslanaraq, yeyinti sənayesi müəssisələrində keyfiyyəti kompleks idarəetmə menecment sisteminin - yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinin təminatına zəmanət verən HASSP - (Hazard Analyisis and Critikal Control Points) - risklərin təhlili və kritik nəzarət nöqtələrinin müəyyənləşdirilməsi əsasında tətbiqidir.**

BTT - Beynəlxalq Ticarət Təşkilatına üzv olan və üzvlüyə hazırlaşan ölkələrdə qanunvericilik səviyyəsində yeyinti sənayesi müəssisələrində HASSP - menecment sisteminin və beynəlxalq HASSP - standartının tətbiqi mütləqdir. HASSP - sisteminin dünyanın müxtəlif ölkələrində geniş tətbiq edilməsi onunla izah edilir ki, istehlakçıların yeyinti məhsulları xəstəliklərindən qorunması təmin edilir. HASSP qrupu – müxtəlif sahələrdə ixtisaslaşmış mütəxəssislər qrupu 4 - 6 nəfərdən ibarət olmalıdır, istehsal prosesini bilməlidir, risklərin səviyyəsini təyin etmə qabiliyyətinə malik olmalıdır, planlaşdırma bacarığına malik olmalıdır. HASSP – sistemini işləyib hazırlayır, tətbiq edir və işçi vəziyyətdə saxlayır.

Təsərrüfatçılığın yeni iqtisadi mexanizmi şəraitində yeyinti sənayesində keyfiyyətin yüksəldilməsi probleminin həlli onun elmi cəhətdən dərk edilməsinə əsaslanmalıdır.

## Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:


1. Керимов С.А. В условиях глобализации проблемы качества и безопасности продуктов пищевой промышленности и их влияние на развитие экономики Азербайджана. AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası, Bakı, Elm, 2008, №4, с. 52- 56.

1. Kərimov S.Ə. Qloballaşma şəraitində yeyinti məhsul-larının keyfiyyəti və təhlükəsizliyinə təminat problemləri və onların iqtisadiyyatın inkişafına təsiri. AMEA-nın Xəbərləri İqtisadiyyat seriyası, Bakı, Elm, 2009, №1, s.105- 108.

2. Керимов С.А. Качество, Безопасность, Конкуренто-способность продукции пищевой отрасли и их влияние на успешное развитие экономики Азербайджана. Российское предпринимательство. 2009, № 8. с. 139 - 143.

3. Kərimov S.Ə. Standartlaşdırmanın yeyinti sənayesi məhsullarının keyfiyyəti və təhlükəsizliyinin təminatında rolu. AMEA İqtisadiyyat İnstitutu Elmi Əsərlər, Bakı, Elm, 2009, № 2, s. 181 - 185.

4. Kərimov S.Ə. Yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinin təmin edilməsinin respublika iqtisadiyyatının inkişafına təsiri. "Azərbaycan Respublikası əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatının iqtisadi problemlərinə" həsr edilmiş respublika elmi - praktik konfransın materialları". Bakı, 2009, s. 208- 210.

6. Kərimov S.Ə. Qloballaşma şəraitində yeyinti sənayesi məhsullarının keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinin təminatı Azərbaycan iqtisadiyyatının prioritet vəzifəsidir. AMEA İqtisadiyyat İnstitutu Elmi Əsərlər, Bakı, Elm, 2011, № 2.

7. Керимов С.А. Качество и безопасность производимой пищевой продукции промышленными предприятиями Азербайджана, проблемы и перспективы развития. Российское Предпринимательство 2011г. № 8. с.173 – 177.

8. Kərimov S.Ə. Qloballaşma şəraitində yeyinti sənayesi məhsullarının keyfiyyətinin yüksəldilməsi və təhlükəsizliyinin təmin edilməsi problemləri, "Beynəlxalq elmi - praktiki konfrans", Bakı 2011- ci il səh. 268 – 271.

9. Kərimov S.Ə. Yeyinti məhsullarının keyfiyyətinin yüksəldilməsi yolları, Bakı, 2012 , 223 s.

**Sанан Алигады оглы Керuмов**

# В условиях глобализации пути повышения качества пищевых продуктов

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, выводов и рекомендаций, а также списка использованной литературы.

Во введении отражена актуальность исследования, сущность поставленных в диссертационной работе проблем, цели и задачи исследования, его основные положения, научные основы полученных результатов исследования, а также пути их практического применения.

В первой главе под названием "Методологические основы исследования качества продуктов пищевой промышленности» рассматриваются основные задачи и методы исследования качества продуктов пищевой промышленности и определения показателей их качества, роль восстановления заготовительных структур и структур управления в этом.

Во второй главе под названием «Анализ состояния качества продукции пищевой промышленности в Азербайджане и их оценка», отражены существуюшие проблемы в производстве пищевых продуктов и в деле достижения повышения качества готовой продукции, исследованы влияние механизации и автоматизации технологических процессов, роль стандартизации и сертификации в повышении качества выпускаемой продукции, произведено оценка состояние дел.

В третьей главе под названием «Основные направления повышения качества продуктов пищевой промышленности», на основе проведенных научно – исследовательских работ выдвинуты обоснованные предложения и пути повышения качества продуктов пищевой промышленности.

В **заключении** научной работы в соответствии с поставленными задачами выдвинуты соответствующие выводы и предложения.

**Sanan Aligady Kerimov**

# In the conditions of globalization of a way of improvement of quality of the food products


## SUMMARY

The thesis consists of introduction, three heads, conclusions and recommendations, and also the list of the used literature.

Relevance of research, essence of the problems put in dissertation work, the purposes and research problems, its basic provisions, scientific bases of the received results of research, and also a way of their practical application is reflected in introduction.

**In chapter 1** under the name "Methodological bases of research of quality of products of the food industry" are considered the main objectives and methods of research of quality of products of the food industry and definition of indicators of their quality, a role of restoration of procuring structures and structures of management in it.

**In chapter 2** under the name "The Analysis of a Condition of Quality of Production of the Food Industry in Azerbaijan and Their Assessment", the existing problems are reflected in production of foodstuff and in achievement of improvement of quality of finished goods, influence of mechanization and automation of technological processes, a role of a standartiz – a tion and certification in improvement of quality of products are investigated, the state of affairs is made an assessment.

**In a chapter 3** under the name "Main Directions of Improvement of Quality of Products of the Food Industry", on the basis of the carried out scientifically – research works reasonable proposals and ways of improvement of quality of products of a food promyshdennost are made.

**In conclusion** of scientific work according to objectives the corresponding conclusions and proposals are made.

Sayı 100 nüsxə, format 60x80 1/16  1,4 ç.v.
Avtoreferat AMEA-nın kompyüter mərkəzində yığılmışdır.
Ünvan:Hüseyn Cavid prospekti. 115.